

"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 05 (793) | 15-20 fevral 2015-ci il | Qiymәti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı




## İlham Əliyev Yunanıstanın məhsuldar istehsal, ətraf mühit və enerji nazirini qəbul edib

Prezident İlham Əliyev Yunanıstanın məhsuldar istehsal, ətraf mühit və enerji naziri Panayiotis Lafazanisi qəbul edib.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirildi. Ölkələrimiz arasında mövcud olan tarixi əlaqələrin ikitərəfli münasibətlərimizin genişləndirilməsi üçün yaxşı imkan yaratdığı qeyd olundu.

Söhbət zamanı həyata keçirilən qlobal enerji layihələrinin ölkələrin bir-birinə daha da yaxınlaşması və inkişafı baxımından önəmi vurğulandı.

## İlham Əliyev ABŞ-ın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanın etimadnaməsini qəbul edib.

Səfir Robert Sekuta fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Robert Sekuta etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələri əhatə etdiyi məmnunluqla qeyd olundu. Bu əlaqələrin regional əməkdaşlıq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, enerji, nəqliyyat və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Səfir Robert Sekutanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan-ABŞ münasibətlərinin perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

## İlham Əliyev İranın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Məhəmməd Cavad Zərif İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Ölkələrimiz arasında əlaqələrin bütün sahələri əhatə etdiyini bildirən Azərbaycan Prezidenti münasibətlərimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev İran Prezidenti Həsən Ruhani ilə keçirdiyi görüşlər zamanı qəbul edilən qərarların önəmini qeyd etdi. Dövlətimizin başçısı İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin məhsuldar olacağına və əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Xarici işlər naziri Məhəmməd Cavad Zərif ölkələrimiz arasında ikitərəfli əlaqələrin dərin tarixə malik olduğunu vurğuladı. O, İran-Azərbaycan münasibətlərinin qurulmasında Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin xidmətlərini böyük ehtiramla xatırlatdı. İranın xarici işlər naziri ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Görüşdə ölkələrimiz arasında regional təhlükəsizlik, terrorizmə qarşı mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, enerji, nəqliyyat, müasir texnologiyalar, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

## İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul edib



Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# “Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr haqqında” rayon İcra hakimiyyəti başçısının hesabat yığıncağının

## Q Ə R A R I

1. “Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr barədə” rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevin məruzəsi nəzərə alınsın.

2. Hesabat ilində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın və “Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı (2014-2018-cü illər)”nın icrası ilə əlaqədar olaraq rayonda yeni sosial obyektlərin tikintisi, infrastrukturun yenilənməsi, abadlıq-quruculuq və tikinti işlərinin aparılması, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun artırılması və yeni iş yerlərinin yaradılması, rayon əhalisinin sosial müdafiəsi və yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində əməli işlərin görülməsi qeyd edilsin.

3. Hesabat ilində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın və “Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı (2014-2018-cü illər)”na uyğun olaraq rayonda təhsilin infrastrukturunun yenilənməsi, səhiyyə və mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və həmin sahələrin inkişafı istiqamətində zəruri işlərin görüldüyü qeyd olunsun.

4. Rayonun sosial infrastrukturunun xüsusilə, elektrik enerjisi və təbii qaz yanacağı ilə təchizatın yaxşılaşdırılması, içməli su və kanalizasiya sisteminin, kənd və kəndarası yolların tikintisi və inkişafı istiqamətində əməli tədbirlərin görüldüyü qeyd edilsin və həyata keçirilən tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Ağstafa rayonunun kəndlərinin qazlaşdırılması istiqamətində əldə olunan nəticələr qeyd edilməklə bu sahədə işlərin daha da sürətləndirilməsi təmin edilsin.

5. Hesabat ilində Ağstafa şəhərinin abadlaşdırılması, tikinti-quruculuq və yenidən qurma işlərinin aparılması sahəsində görülən işlər qeyd edilməklə, cari ildə şəhərdə abadlıq, təmir-tikinti işlərinin aparılmasının tikinti norma və qaydalarına uyğun, estetik baxımlı və memarlıq üslubuna uyğun təşkilinə və qanunsuz tikintilərin qarşısının alınmasına diqqət artırılması zəruri hesab edilsin. “Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı (2014-2018-cü illər)”na uyğun olaraq rayonda tikinti-quruculuq və abadlıq sahəsində işlərin davam etdirilməsi təmin edilsin.

6. Rayonda əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı, yeni istehsalat, emal və xidmət sahələrinin təşkili, yeni iş yerlərinin yaradılması sahəsində hesabat ilində əməli işlərin görüldüyü qeyd edilsin və bu istiqamətdə tədbirlərin sürətləndirilməsi zəruri hesab olunsun. Yerli istehsalat, emal və xidmət sahələrinin bərpası istiqamətində təşkilati işlərin görülməsi sürətləndirilsin, yerli və xarici iş adamlarının cəlb edilməsi yolu ilə ənənəvi istehsalat sahələrinin müasir texnologiyaların tətbiq edilməsi ilə bərpası və təbii ehtiyatlardan səmərəli istifadə olunması təmin edilsin.

7. Sahibkarlığın və aqrar bölmədə özəl qurumların inkişafına kömək göstərilməsi sahəsində işlərin artırılması təmin edilsin, Sahibkarlığa Kömək Milli Fondunun, qeyri bank kredit təşkilatlarının imkanlarından daha səmərəli istifadə olunması üçün maarifləndirmə işlərinin aparılması təmin edilsin.

Aztəminatlı ailələrin sosial müdafiəsinin təşkili, əmək pensiyalarının, sosial müavinətlərin təyini və ödənilməsi sahəsində şəffaflığı təmin edən tədbirlərin davam etdirilməsi zəruri sayılsın.

8. Rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dövlət dəstəyi proqramının uğurla həyata keçirilməsi, torpaq mülkiyyətçilərinin hüquqlarının təmin olunması istiqamətində əməli işlərin aparıldığı qeyd olunsun. Subsidiyaların hesablanması və ödənilməsində şəffaflığın təmin olunması, əkin sahələrinin uçotunun düzgün aparılması sahəsində zəruri işlərin həyata keçirildiyi qeyd olunsun. Aqrar bölmənin inkişafına təsir edən tədarük və emal sahələrinin bərpası və yenilərinin yaradılması, eləcə də məhsulun saxlanması üçün soyuducu anbar komplekslərinin təşkili istiqamətində tədbir görülməsinə, baytarlıq, bitki mühafizəsi və aqroservis xidmətinin, torpaqlardan istifadə və suvarmanın təşkilinin yaxşılaşdırılmasına diqqət artırılsın.

9. 2004-2014-cü illər ərzində rayonda 14 yeni məktəb binasının tikilməsi, rayon məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində əməli işlərin görüldüyü və təhsil sahəsindəki irəliləyişlərin olması qeyd edilsin. Orta məktəblərdə, məktəbdənkənar müəssisələrdə təlim tərbiyə və tədris prosesinin səviyyəsinin artırılması, əmək intizamı, dərsə davamiyyət məsələlərinə ciddi yanaşma təmin edilsin, pedaqoji kadrların yerləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və istilik təchizatı işinə nəzarət olunması təhsil şöbəsinin müdiri Fərhad Vəliyevdən tələb olunsun.

10. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibbi avadanlıq və texnika ilə təmin olunması sahəsində yeniliklərin olması qeyd edilməklə rayon əhalisinə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görməsi Rayon Mərkəzi Xəstəxanasının baş həkimi İlham Mustafayevdən tələb olunsun.

11. Rayonda mədəni-kütləvi tədbirlərin təşkilinin səviyyəsinin artması qeyd olunsun, kənd və qəsəbələrdə klub, mədəniyyət evi və kitabxana müəssisələrinin bina şəraitinin yaxşılaşdırılması və turizmin inkişafı sahəsində rayonda əlavə tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Rayonda mədəniyyət və turizm sahəsində innovasiyaların tətbiq edilməsi, kənd və qəsəbələrdə mədəniyyət müəssisələrinin işinin gücləndirilməsi istiqamətində tədbirlər görülməsi Gülgün Kərimovdan tələb olunsun.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 iyun 2014-cü il tarixli Sərəncamına uyğun olaraq Ağstafa Musiqi və İncəsənət Mərkəzinin tikinti işlərinin, Ağstafa mədəniyyət evinin əsaslı təmirinin başa çatdırılaraq istifadəyə verilməsi təmin edilsin.

12. Yeniyetmə və gənclər arasında olimpiya-idman hərəkatının, idmanın kütləviliyinin artmasının təmin olunması, fiziki bədən tərbiyəsi və idmana meyliliyin artırılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili, idmanın müxtəlif növlərini əhatə edən klubların və əyləncə mərkəzlərinin yaradılması, mədəni irsə, milli mənəvi dəyərlərə hörmət və vətənpərvərlik tərbiyəsi sahəsində işlərin daha da gücləndirilməsi rayon Gənclər və İdman idarəsinin rəisi Feyruz Həsənovdan tələb olunsun. Birinci Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar olaraq rayonda olimpiya idman oyunlarının təbliği sahəsində işlər artırılsın.

13. Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd ərazi nümayəndəliklərinin və bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılması, onların güclərinin yerlərdə sosial-iqtisadi problemlərin həllinə yönləndirilməsi üçün tədbirlər görülsün.

Aztəminatlı və yoxsul ailələrin sosial müdafiəsi, yerlərdə sosial inkişaf proqramlarının icrası istiqamətində bələdiyyələrlə əlaqəli işin gücləndirilməsi zəruri hesab edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, tövsiyə və təkliflərinin, mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarının vaxtında və tam icrasının təmin olunması, icra intizamının möhkəmləndirilməsinin və icraya nəzarətin təşkili, dövlət idarəçilik prinsiplərinin tətbiq olunmasının təmin olunması Rayon İcra Hakimiyyəti başçısı aparatının şöbə müdirlərindən, idarə, müəssisə və təşkilat rəhbərlərindən tələb olunsun.

15. Qərarın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının üzərində saxlanılsın.

16. Qərar “Ağstafa” qəzetində dərc olunsun.

# Poyluda yeni bağça inşa ediləcək

Bu gün dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biri gələcəyimiz olan uşaqlara diqqət və qayğı göstərməkdən, onların sağlam, gümrah böyümələri üçün lazımi şərait yaratmaqdan ibarətdir. Son illər ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da bu istiqamətdə görülən işlərin sayı-hesabı yoxdur. Təkcə onu göstərmək kifayətdir ki, son üç ildə şəhərimizdə olan beş uşaq bağçası və körpələr evinin üçünün yerində yeni uşaq bağçası inşa olunmuş, bir uşaq bağçasının tikintisi isə davam etdirilməkdədir.

Bu cür məqsədyönlü tədbirlər demək olar ki, rayonun bütün kəndlərində də davam etdirilir, yeni uşaq tərbiyə müəssisələri inşa olunur, mövcud bağçalarda əsaslı təmir işləri aparılır. Kənd sakinləri 2015-ci ildə daha bir sevindirici hadisənin şahidi olacaqlar. Rayon İcra Hakimiyyətinin memarlıq və tikinti şöbəsindən əməkdaşımıza bildirdilər ki, yaxın günlərdə Poylu kəndində 55 yerlik daha bir uşaq tərbiyə müəssisəsinin tikintisinə başlanılacaqdır. Bununla əlaqədar artıq layihə-smeta sənədlərinin hazırlanması işi başa çatdırılmaq üzrədir. Layihə-smeta sənədlərinə ekspertiza rəyi alındıqdan sonra tender keçiriləcək tikinti işlərinə başlanılacaqdır.

Ən sevindirici hal ondan ibarətdir ki, dövlət vəsaiti hesabına inşa olunacaq bu uşaq tərbiyə müəssisəsinin binası iki mərtəbəli olmaqla, burada körpələrin sağlam böyüməsi, istirahət etməsi, məktəbə hazırlanması üçün hər cür şəraitin yaradılması nəzərdə tutulmuşdur.

Yeni uşaq bağçası-körpələr evinin eskiz layihəsi şəkildə göründüyü kimi olacaqdır.



# Məktəblilərin müsabiqəsi

Ağstafadakı Heydər Əliyev Mərkəzində yeni ilin ilk günlərindən rayonun şəhər və kənd məktəblərində təhsil alan istedadlı şagirdlərin müsabiqəsi keçirilir. Ən yaxşı şeir söyləyən, rəsm çəkən, rəqs edən ayrı-ayrı bölmələrdə öz güclərini sınayır, bacarıqlarını nümayiş etdirirlər.

İndiyədək Mərkəzin nəzdində fəaliyyət göstərən dərnəklərdə müsabiqənin bir neçə turu keçirilmiş, finala çıxan istedadlı şagirdlər müəyyən edilmişdir. Təravətli yaz fəslinin ilk günlərində isə yarışların ayrı-ayrı növləri üzrə yekun müsabiqələri keçiriləcəkdir. Müsabiqə qaliblərinə Rayon təhsil şöbəsinin diplomları və hədiyyələr təqdim ediləcəkdir.

# Kənd təsərrüfatı inkişaf etdirilməlidir

***2015-ci il respublikamızda kənd təsərrüfatı ili elan olunmuşdur. Ölkəmiz üçün ənənəvi xarakter daşıyan belə bir tədbirin keçirilməsi heç də təsadüfi deyildir. Çünki respublikamızın iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutmaqla xüsusi əhəmiyyət kəsb edir.***

***Qərb bölgəsində əkinçiliyin və heyvandarlığın daha da inkişaf etdirilməsi üçün əlverişli torpaq sahələri olan rayonlardan biri də Ağstafadır. Bu gün rayonumuzun ərazisində 21501 hektar əkin sahəsi mövcuddur ki, onun 18274 hektarı suvarılan sahələrdir.***

2014-cü ildə rayonumuzda 9592 hektar sahədə taxıl, 460 hektar kartof, 326 hektar tərəvəz, 780 hektar qarğıdalı, 133 hektar bostan bitkiləri, 240 hektar günəbaxan, 71 hektar paxlalı bitkilər əkilmiş və həmin sahələrin əksəriyyətində nəzərdə tutulduğundan xeyli çox məhsul tədarük edilmişdir.

Bu gün rayonumuzun ayrı-ayrı kəndlərində becərilən sahələrdən daha çox məhsul götürmək üçün yaxşı imkanlar vardır. Ən başlıcası isə ondan ibarətdir ki, rayonun ərazisində kənd təsərrüfatı işçilərinə xidmət göstərən iki serviz mövcuddur ki, həmin servizlərdə 72 ədəd kənd təsərrüfatı texnikası vardır.

Yola saldığımız 2014-cü ildə kəndlərdə istehsal olunan məhsulun böyük bir hissəsi məhz "Aqrolizinq" ASC-də və "Ağstafa Aqroserviz"də mövcud olan texnikaların gücü vasitəsilə tədarük olunmuşdur.

Bütün bunlarla yanaşı, qeyd olunmalıdır ki, rayonumuzda kənd təsərrüfatına yararlı torpaqların hər hektarından daha çox məhsul götürmək üçün böyük imkanlar vardır. Bunun üçün rayonda kənd təsərrüfatı texnikasının mövcudluğu ilə yanaşı əkin sahələrinin suvarılmasının təşkili də ən mühüm şərtlərdən biridir. Qeyd etmək istərdim ki, əkin sahələrinin suvarılmasında əvvəllər mövcud olan bəzi problem və çətinliklər bu gün də vardır. Belə ki, əkin sahələrini suvarmaq üçün Ağstafaçay Hidroqovşaq İstismarı İdarəsinin balansındakı su anbarında olan sudan istifadə edilir. Lakin son illər havaların quraq keçməsi nəticəsində həmin su anbarında kifayət qədər su yığılmır və nəticədə əkin sahələri tələb olunan qaydada suvarılmır. Mövcud çətinliklərin aradan qaldırılması üçün Rayon icra hakimiyyətinin rəhbərliyi tərəfindən əməli tədbirlərin görülməsinə başlanılmış və demək olar ki, bu istiqamətdə xeyli iş görülmüşdür.

Rayonun Düzqışlaq, Qarahəsənli, Molla Cəfərli, Pirili və Kolxəlfəli kəndlərinin 2943 hektar əkin sahəsi Sol Sahil kanalının Qazax rayonunun kəndlərinin ərazisindən keçən "Axmaz" arxı vasitəsilə suvarılır. Həmin arxın su keçirmə qabiliyyəti az olduğuna və verilən suvarma suyunun kifayət qədər olmaması üzündən qeyd etdiyim kəndlərdə yazlıq və payızlıq bitkilərin suvarılmasında ciddi çətinliklər yaranır. Göstərilən halların aradan qaldırılması ilə əlaqədar həmin kəndlərdəki və eləcə də Sadıxlı, Muğanlı, Ağgöl, Böyük-Kəsik kəndlərindəki əkin sahələrinin suvarılması üçün yeni suvarma arxlarının inşasına başlanılmış və bu iş demək olar ki, başa çatdırılmışdır. Bundan əlavə 2014-cü ildə həmin ərazilərdə 11 ədəd subartezian quyusu qazılmışdır ki, bu da kənd əhalisi tərəfindən rəğbətlə qarşılanmış, əhalinin suvarma suyu ilə təminatını xeyli yaxşılaşdırmışdır.

Dağkəsəmən kəndində uzun illərdən bəri narahatlıq yaradan sel sularının qarşısının alınması üçün də əməli tədbirlər görülmüş və bu məqsədlə yeni bəndin tikintisinə başlanılmışdır. Bu bəndin tikintisi həm də rayonun suvarma suyuna olan tələbatının ödənilməsində müsbət rol oynayacaqdır.

Bütün bunlardan əlavə rayonun ərazisindən keçən Kür çayının suyundan suvarma suyu kimi istifadə edilməsi üçün də əməli tədbirlər görülür. Bu məqsədlə çayın üzərində nasos stansiyasının quraşdırılması üçün müvafiq orqanlar qarşısında məsələ qaldırılmış və söz yox ki, yaxın zamanlarda bu məsələ də öz müsbət həllini tapacaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, həmin məhsulların qorunub saxlanılması da vacib məsələlərdən biridir. Rayon rəhbərliyi tərəfindən bu istiqamətdə də əməli tədbirlər görülür. Əgər rayonlarda emal müəssisələri və məhsulları qoruyub saxlamaq üçün soyuducu kameralar olarsa, istehsalçıların məhsul istehsalına maraqları daha çox olar. Biz gələcək fəaliyyətimizdə bu məsələyə də diqqət yetirməyi qarşımıza məqsəd qoymuş və söz yox ki, buna nail olmaq üçün konkret tədbirlər hazırlayırıq.

Rayon iqtisadiyyatında heyvandarlıq da mühüm yer tutur. Ötən illərdə bu sahədə də müsbət nəticə əldə etmişik. Belə ki, iri buynuzlu mal-qaranın baş sayı əvvəlki illərə nisbətən artırılaraq 25956 başa, xırda buynuzlu davarların baş sayını 73637 başa çatdırılmışdır. Bütün bunların nəticəsi olaraq 2014-cü ildə rayonda ət istehsalı 90 ton, süd istehsalı 232 ton, yun istehsalı 1 ton, yumurta istehsalı 163 min ədəd artmışdır.

Lakin onu da qeyd etməliyəm ki, rayonumuzun ərazisində yerləşən M.Mikayılov adına dövlət damazlıq təsərrüfatında, "Dilbaz" atçılıq zavodunda, qoyunçuluq təsərrüfatında heç də uğurlu nəticələr əldə olunmamışdır. Həmin təsərrüfatlarda qaba yem tədarükü tələbatdan az istehsal olunmuş, qüvvəli yem isə ümumiyyətlə heç istehsal edilməmişdir.

2015-ci ilin respublikamızda kənd təsərrüfatı ili elan olunması bizim qarşımızda daha böyük vəzifələr qoyur. Ən birincisi bu sahədə mövcud olan nöqsan və çatışmazlıqları aradan qaldırmalıyıq. Rayonumuzda kənd təsərrüfatında yüksək nailiyyətlər əldə etmək üçün yaxşı şərait vardır. Biz çalışacağıq ki, bu il həmin imkanlardan səmərəli istifadə edək və kənd təsərrüfatının bütün sahələrində uğurlu nəticələr əldə edək.

***Ramiz İmanov,***
***RİHB-nın müavini, aqrar məsələlər şöbəsinin müdiri***

# Millətin gələcəyinə yeni qayğı



***Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan, ömrünü bu yolda şam kimi əridən pedaqoji işçilərə qayğı göstərilməsi dövlətimizin daim diqqət mərkəzində olmuş və bu gün də həmin məqsədyönlü iş davam etdirilməkdədir. Ümumtəhsil məktəblərinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, gənc nəslin təlim-tərbiyəsi işinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər millətin gələcəyinə göstərilən qayğı kimi qiymətləndirilməlidir.***

***Ölkəmizin təhsil işçiləri bu günlər onlara göstərilən yeni bir qayğının şahidi oldular. Müəllimlərin dərs yükünün və əmək haqlarının artırılması ilə əlaqədar respublika prezidenti cənab İlham Əliyev 16 yanvar 2015-ci il tarixdə yeni bir sərəncam imzaladı. Bu sərəncam ölkəmizin bütün pedaqoji işçilərinin böyük sevincinə səbəb oldu.***

***Ölkə başçısının müəllimlərə göstərdiyi qayğıya, təhsilin inkişafına, gənc nəslin təlim-tərbiyəsi sahəsində görülən işlərə münasibət bildirməyi Rayon təhsil şöbəsinin müdiri Fərhad Vəliyevdən xahiş etdik. O, əməkdaşımızın suallarına cavab verərək bildirdi:***

- İstər müəllim, istərsə də məktəb direktoru işlədiyim dövrlərdə və elə günü bu gün də ulu öndər Heydər Əliyevin, onun layiqli davamçısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin millətin gələcəyi olan təhsilə, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərə diqqət və qayğısını görmüş və həmin xoşbəxt anları yaşamışam. Müəllimlərin əmək haqlarının artırılması barədə möhtərəm prezidentimizin bu ilin əvvəlində imzaladığı növbəti sərəncam isə həmin qayğının bu gün də davam etdirilməsinin parlaq təzahürüdür. Mən bütün bunlara görə hörmətli prezidentimizə rayonumuzun təhsil işçiləri adından dərin minnətdarlığımı bildirirəm. Son bir neçə ildə rayonda 8 yeni məktəb binasının inşa olunması bəzi məktəblər istisna edilməklə təhsil müəssisələrinin hamısının əsaslı təmir edilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi bunu fəxrlə deməyə əsas verir ki, bu gün Ağstafada gənc nəslin təlim-tərbiyəsi işini daha yüksəklərə qaldırmaq üçün hər cür şərait vardır.

Son illər əldə etdiyimiz nailiyyətlərə diqqət yetirsək görərik ki, pedaqoji işçilərimiz onlar üçün yaradılmış imkan və şəraitdən səmərəli istifadə etmiş, bütün sahələrdə sevindirici nailiyyətlər qazanmışlar. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, 2014-cü ildə rayonun ümumtəhsil məktəblərini bitirən və ali məktəblərə sənəd verən 429 nəfər məzundan 263 nəfəri ali və orta ixtisas məktəblərinə qəbul olmuşlar. Qəbul imtahanlarında yüksək nəticə qazanan məzunlardan 53 nəfərinin 500-dən çox, 16 nəfərinin 600-dən çox bal toplaması isə ən yüksək nailiyyətlərimizdən biridir.

Abituriyentlərin göstərdikləri nəticələrin təhlili onu deməyə əsas verir ki, ana dili, riyaziyyat, kimya, coğrafiya və fizika fənləri üzrə ən yüksək nəticə göstərən ilk qırxlıqda bizim rayonumuzun nümayəndələri xüsusilə fərqlənmişlər. Belə ki, abituriyentlərimizin bütün fənlər üzrə doğru cavablarının faizi respublikanın orta göstəricisindən yüksək olmuşdur. Onlardan bir nəfərinin-Dağkəsəmən kənd 1 saylı tam orta məktəbinin yetirməsi Zaur Ayralovun "Prezident təqaüdü"nə layiq görülməsi, Zəlimxan kənd tam orta məktəbinin yetirməsi Qismət Cəfərovun təhsildə əldə etdiyi nailiyyətlərə görə "Qızıl medal"la təltif olunması ən sevindirici nailiyyətlərimizdəndir.

Ötən dərs ilində möhtərəm prezidentimizin sərəncamına əsasən keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqəsində rayonumuzun məktəbləri, müəllimləri xüsusilə fərqlənmişlər. Həmin müsabiqədə şəhər 1 saylı tam orta məktəbi və Dağkəsəmən kənd 1 saylı tam orta məktəbi "İlin ən yaxşı məktəbi", Texniki humanitar təmayüllü liseyin müəllimi Ramiz Nəsirov, Saloğlu qəsəbə tam orta məktəbin müəllimi Yaşar İsgəndərov xüsusilə fərqlənmiş və müsabiqənin qalibi adına layiq görülmüşlər.

Ümumiyyətlə ötən dərs ilində müəllimlərimizin, onların yetirmələri olan şagirdlərimizin əldə etdikləri nailiyyətlər barədə daha çox faktlar göstərmək olar. Ən sevindirici hal odur ki, pedaqoji işçilərimiz gənc nəslin təlim-tərbiyəsi işində əldə olunmuş nailiyyətlərdən arxayınlaşmır, daha yaxşı nəticələr qazanmaq üçün öz səy və bacarıqlarını əsirgəmirlər.

Möhtərəm prezidentimiz cənab İlham Əliyevin təhsil işçilərinin əmək haqlarının artırılması barədə sərəncamı isə ümumtəhsil müəssisələrinin fəaliyyətlərinin daha da yaxşılaşdırılmasında, bu müəssisələrdə çalışan pedaqoji işçilərinin bilik və bacarıqlarının qiymətləndirilməsində yeni mərhələ olacaqdır. Biz bu möhtəşəm işə başlamış və əminəm ki, sərəncamdan irəli gələn vəzifələrin uğurla həyata keçirilməsinə nail olacağıq.

***İbrahim Əliyev***

# Bilik yarışı

Ümumtəhsil məktəblərində şagirdlərin savad və bacarıqlarını üzə çıxarmaq üçün bilik yarışlarının vaxtaşırı keçirilməsi zəruri haldır. Buna görə də rayon və zona turnirlərinin keçirilməsinə xüsusi önəm verilir.

Cari tədris ilinin ikinci yarımilliyində rayon üzrə 47-ci Beynəlxalq kimya olimpiyadasının birinci turu keçirilmişdir. Bu turda rayonun ümumtəhsil məktəblərindən 22 nəfər iştirak etmişdir. Real və obyektiv keçirilən yarışda 9 nəfər şagird fərqlənmişdir. Onun üç nəfəri məhz bizim məktəbin şagirdləridir. Nicat Rüstəmov 24, Rasim Şükürov 23, Leyla Həmidli 19 bal toplayaraq məktəbimizin adına layiq bilik nümayiş etdirmişlər.

Zona turuna keçid alan bu şagirdlər fevralın 15-də Gəncə şəhərində üçüncü tura düşmək üçün bilik sınağından keçmişlər. Məktəbimizin şagird və müəllim kollektivləri ümid edir ki, onlar bu gərgin və şərəfli bilik yarışında da qalib gələcəklər. Son nəticələri gözləyirik.

***Ellada Batıyeva,***
***Qaçaq Kərəm kənd məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini***

# İnzibati xətalara yol verilməməlidir

2014-cü ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar tərəfindən Ağstafa rayonunda 1715 inzibati xəta aşkar edilmişdir ki, bu da 2013-cü ilə nisbətən 5.0 faiz çoxdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 1715 nəfər, inzibati tənbeh tətbiq olunmuş şəxslərin sayı 1668 nəfər olmuşdur. Onlardan 58 nəfərinə xəbərdarlıq olunmuş, 1566 nəfərinə cərimə tətbiq olunmuş, 43 nəfəri həbs olunmuşdur. Rayon üzrə inzibati xətaların bütün növlərinə görə 84.8 min manat cərimə tətbiq olunmuş, ondan il ərzində 81.2 min manatı dövlət büdcəsinə ödənilmişdir.

Yol hərəkəti qaydalarının pozulmasına görə 1254 inzibati xəta qeydə alınmış, 1254 nəfər haqqında həmin xətalara görə qərarlar çıxarılmış, 1247 nəfər haqqında inzibati tənbeh tətbiqi haqqında qərarlar qəbul olunmuşdur.

Yaşayış sahələrindən istifadə qaydalarının pozulmasına görə 15 inzibati xəta qeydə alınmışdır ki, bu da 2013-cü illə müqayisədə 5 dəfə çoxdur. Qaydaların pozulmasına görə sanitariya-gigiyena və epidemiya üzrə 1, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma üzrə 96, istehlakçıların aldadılması üzrə 11, vergilərin və digər icbari ödənişlərin vaxtında ödənilməməsi üzrə 74, xırda xuliqanlıq üzrə 30, ətraf mühütin mühafizəsi üzrə 5,şəxsiyyət vəsiqəsinin, pasportun, Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün sənədlərin itirilməsinə və ya qəsdən korlanmasına görə 30, digər hallar üzrə 195 inzibati xətalar qeydə alınmışdır.

Hesabat ilində əvvəlki illə müqayisədə qeydə alınmış inzibati xətaların səviyyəsi yolda müəyyən edilmiş hərəkət sürətini aşma üzrə 15 faiz, piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozulması üzrə 2.2 dəfə, dayanma, durma və parklanma qaydalarının pozulması üzrə 43 faiz, yaşayış sahələrindən istifadə qaydalarının pozulması üzrə 5 dəfə, vergilərin və digər icbari ödənişlərin vaxtında ödənilməməsi üzrə 54 faiz, əxlaqsız hərəkətlərlə məşğul olmaq üzrə 2 dəfə, sənədlərin itirilməsinə və pasport reyiminin pozulması üzrə 50 faiz artmışdır.

Göründüyü kimi, 2014-cü ildə rayonda inzibati xətalara yol vermiş şəxslər haqqında ciddi tədbirlər görülmüşdür. İnzibati xətalardan uzaq olmağın yeganə yolu dövlətin müəyyən etdiyi qaydalara əməl etməkdir.



***Ayna Alıyeva, Ağstafa Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi***

# Göyərçin əfsanəsi

***(Dərdinə qurban qardaş, dərdinə də küsənlər var)***



***Yeri, hilalım, yeri,***
***Qaşı hilalım yeri,***
***Zəhmətim, əziyyətim,***
***Olsun halalın, yeri!***

...O tükürpədən hadisədən sonra səhərlər göyərçinin səsinə ayılardı yuxudan. Qeyri-ixtiyari tez çölə çıxıb səsləyərdi onu. Göyərçinsə sanki dil bilirmiş kimi göydə üç dəfə dövrə vurub həyətə qonardı. Qəribə idi, bu evə köçəndən heç bizim həyətə göyərçin gəlməzdi,-deyə düşündü. Deyəsən, tanrı onu təsəlli üçün göndərmişdi ona. Göyərçinə dönüb qayıtmışdı oğlu. Ayağı, döşü xınalı göyərçinə. Çörəyi ovxalayıb ovcuna aldı. Göyərçinsə qorxmadan, hürkmədən, sanki çoxdan tanıyırmış kimi ona yaxınlaşdı. Onun ovcundan çörəyi arxayınlıqla dənlədi. Su içdi, sonra sağollaşıb uzaqlara uçdu. O, göyərçinin dalınca baxdı, baxdı. Bu səma, bu göy ona çox şeyləri xatırlatdı...

Xatirələrini çözdü. 1992-ci ilin sərt fevral ayını xatırladı. Yenicə ailə qurmuşdu. Üç körpə uşağını, həyat yoldaşını, ata-anasını kimə tapşıracaqdı. Müharibəyə gedənlərin hamısı sağ-salamat qayıtmır ki,... Lakin Xocalıda baş vermiş dəhşətli qətliam onu saxlaya bilmədi. Vəhşicəsinə öldürülən günahsız körpələrin, qocaların, qızgəlinlərin başına gətirilən müsibətlər onu rahat yatmağa qoymurdu. Hər şeyi gözə alıb döyüş bölgəsinə yollandı. Sərhəd zonalarında, Qarabağın müxtəlif bölgələrində qızğın döyüşlərdə oldu. Yaxşı atıcı olduğundan hədəfi boş getmirdi. Neçə-neçə günahsız körpələrin qanını almışdı. Bütöv bir güllə darağını of deməden boşaltmışdı düşmənə tərəf. Çox itkilər, tələfatlar görmüşdü. Dodağını dişlədi. Bəlkə...Yox, bəs Xocalıda günahsız körpələrin, qocaların, qız-gəlinlərin başına gətirilən müsibətlərin bədəlini kimin belinə yazaq. Artıq o vaxtdan 23 il keçmişdi. Körpələr də böyümüşdü, ata-ana da qocalmışdı. Şəvə, qara saçları çox bəyazlanmışdı. Qəfil qopan acı külək onu bir az da qocaltmışdı. Ağrılar, itkilər, tələfatlar görmüşdü. Amma bu itki onlara bənzəmirdi...

"Sevmək nə gözəl olurmuş, ana!" İki ay bundan əvvəl oğlunun anasına dediyi bu sözləri xatırladı. Nə biləydi ki, bu sevginin ömrü qısa, acı xatirəsi bir dastana çevriləcəkdi. Sevgi dastanına Bircəcik oğlunun nakam sevgi hekayəsi, tanrı yolunda qıldığı namazı, tutduğu orucu, düz niyyəti, mərdliyi,savadı hələ varaq-varaq çox oxunacaq, haqqında yeni-yeni nağıllar, dastanlar qoşulacaqdı...

Bunları xatırladıqca, qəlbi göynədi, gözlərinə dolan yaşı qəlbinə axıtmağa çalışsa da bacarmadı. Çox-çox illər bundan əvvəl yadında qalan bu misraları xatırladı.

*Əbədi yuxuya gedərdim inan,*
*Sənin yoxluğunu itirmək üçün*

Dərdinə qurban qardaş, dərdinə də küsənənlər var. Ağlama qardaş! Axı, sənin Elçinin qəzaya düşəndə sən bizim hamımıza-bərk durun! Dərdin üstünə elə gedin ki, dərd sizdən utansın!-demişdin. Sən oğlunu-Elçini də özün kimi böyütdün. Dəyanətli, qorxmaz, igid! Bəlkə ona görədir ki, o, alın yazısına doğru, ölümün üstünə şərəflə gedə bildi. Bilərəkdən, çəkinmədən, qorxmadan. O, 24 yaşında ölə bildi, ölməyi bacardı. O, hamıya ölümün gerçək olduğunu anlatdı. Ölümün şərəf olduğunu, ölümdən qorxmamağı öyrətdi. Dirikən ölmüşlərə yazıqlar olsun! İndi səndən sonra biz hamımız ölə billik! Başının üstündə qoşa dayanan şam ağacının budaqlarından süzülən "acı göz yaşları" hər səhər sənin üzünə salavat çəkərək deyir: "Nurlar içində yat, ayağı xınalı göyərçinim! Məsəl var deyərlər ki, igid yatmayan qəbiristanlıqda qarğadan savayı bir quş da uçmaz!" Sən ölmədin, göyərçinə dönüb aramıza qayıtdın. Səni sevənlərin və daima qəlbində yaşadanların adından qələmə aldı:

***Südabə Hüseynqızı***

## 2015-2016-cı tədris ilində DİN-nin Polis Akademiyasında təhsilə namizədlərin seçiminin təşkilinə dair Ağstafa rayon polis şöbəsində DİN-nin Polis Akademiyasına əyani təhsil üzrə namizədlərin sənədlərinin qəbulunu elan edir

DİN Polis Akademiyasında təhsil almaq arzusu olan tam orta təhsil məktəblərinin buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və həmin ayın 31-dək yaşı 18-ə çatmış) mülki gənclər arasından namizədlərin müvafiq forma üzrə ərizələrinin Ağstafa rayon polis şöbəsində qəbulu 2015-ci ilin yanvar ayınln 21-dən fevral ayının 28-dək həyata keçirilir.

Namizədlər aşağıdakı sənədləri ərazi polis orqanlarına təqdim etməlidirlər.

- şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə (əsli notariat qaydada təsdiq olunmuş surəti)
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-nə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat)
- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-nə təqdim olunması üçün sağlamlıq haqqında arayış
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (notariusda təsdiq olunmuş surəti)

9x12 sm ölçüdə 2 ədəd 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız rəngli donuq kağızda)

DİN-nin Polis Akademiyasına qəbulla bağlı əlavə məlumat almaq üçün Ağstafa rayon PŞ-nin Kadrlar Qrupuna müraciət edə bilərsiniz.

**TEL-mob: 070-308-86-49**
**050-358-09-49**

## Ağstafa rayon İcra Hakimiyyəti 2015-ci il üçün katirovka sorğusu elan edir

1. İnventar və avadanlıqların alınması
2. Bırk və yumşaq inventarların alınması
3. Dəftərxana və təsərrüfat xərcləri
4. Sair təmir işləri

**Ünvan:** Hüseyn Arif küçəsi-3
**Əlaqə telefonu:** 02222 5-32-41

***Katirovka komissiyası***

## Ağstafa rayon Mədəniyyət və Turizm şöbəsi 2015-ci il üçün KATİROVKA SORĞUSU ELAN EDİR

1. Dəftərxana ləvazimatları və Təsərrüfat mallarının alınması
2. Yumşaq inventarların alınması
3. İnventar, avadanlıq və digər maşın avadanlıqlarının alınması təmiri
4. Cari təmir-tikinti quraşdırma işlərinin aparılması

**Ünvan:** Ağstafa şəhəri Eyvaz Qələmçəli küçəsi 4
**Telefon** (022) 225-17-98
**Əlaqələndirici şəxs:** Maxanova Aidə İbrahim qızı

***Katirovka komissiyası***

# Ədəbi məclisin növbəti məşğələsi



Ağstafada fəaliyyət göstərən Hüseyn Arif ədəbi məclisinin yeni ildə ilk məşğələsi keçirilmişdir. Məclisə toplaşan yerli yazarlar ötən il işıq üzü görmüş yeni müəllif kitablarından söhbət açmışlar. Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri Barat Vüsal, ədəbi məclisin sədri Saqif Qaratorpaq yeni yaradıcılıq ilində yerli şairlərin qarşısında duran vəzifələrdən söhbət açmışlar. Həmçinin növbəti ildə zona filialında həyata keçiriləcək tədbirlərin planı müzakirə edilmişdir.

Ədəbi məclisin növbəti məşğələsində yerli yazarların arzu və təklifləri dinlənilmişdir.

## Etibarsız sayılır

Soyuqbulaq qəsəbə sakini mərhum Alıyev Süleyman İdris oğlunun adına olan 105 saylı "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

* * *

**Quliyev Əfqan Paşa oğlunun adına olan AD 0009169 nömrəli hərbi qulluqçunun şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
***"Ağstafa" qəzetinin jurnalist kollektivi***
***Şəadətnamə № 308***

***Redaksiya heyəti***
***L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.***

***Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10***
***Tel: 5-14-56***
***mob: (050) 344-26-20***
***Tiraj: 1000***